**Gəncədə çörək istehsalı müəssisəsində nöqsanların aşkarlanmasına dair məlumat**

**(25 oktyabr 2024)**

Gəncə şəhəri, D.Qorqud küçəsi 5B ünvanında fəaliyyət göstərən, İbrahimov Zahir Mirzə oğluna məxsus çörək istehsalı müəssisəsində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən planlı yoxlama keçirilib.

Baxış zamanı müəssisədə temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, emal prosesində istifadə olunan suyun filtrasiya ilə təmin edilmədiyi, tələblərə uyğun havalandırma sisteminin təchiz olunmadığı, döşəmə, tavan və divar səthlərinin təmirsiz olduğu və asan təmizlənə bilən, dezinfeksiyaya davamlı materialla üzlənmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisənin fəaliyyəti məhdudlaşdırılıb, sahibkar barəsində inzibati qaydada tədbir görülüb və icrası məcburi göstərişlər verilib.